

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

31 iyul 2023-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

Azərbaycanda Lider - Xalq tandeminin başlanğıcı ➔Səh.4

BDU Elmi Şurasının 2022/2023-cü tədris ilində son iclası ➔Səh.5

BDU-nun "Web of Science"də indekslənən "TWMS Journal Pure and Applied Mathematics" jurnalı 329 beynəlxalq nəşr arasında 8-ci yerdədir ➔Səh.5

Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 54-cü ildönümü qeyd olunub ➔Səh.6

BDU-da coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyevin 70 illik yubileyinə həsr olunmuş Respublika elmi seminarı ➔Səh.6

BDU Türkiyənin Karabük Universiteti ilə anlaşma memorandumu imzalayıb ➔Səh.9



BDU və İsrail Yerusəlim İbrani Universitetinin ikili diplom proqramına qəbulla əlaqədar infosessiya ➔Səh.2



BDU-nun İctimai Nəzarət Şurasının üzvləri ilə görüş ➔Səh.2




BDU-da Portuqaliyanın Tomar Politexnik İnstitutunun nümayəndə heyəti ilə görüş ➔Səh.5



BDU-nun ictimai həyatında fəal iştirak edən gənclər təltif olunublar ➔Səh.7




Milli Mətbuat Günü - 148 ➔Səh.8



## "Müasir Azərbaycan mediası - peşəkarlıq standartları və yeni trendlər" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib

***İyulun 4-də Jurnalistika fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müasir Azərbaycan mediası - peşəkarlıq standartları və yeni trendlər" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Ulu Öndərin məzunu olması ilə fəxr etdiyi, diqqət və qayğısını əsirgəmədiyi Bakı Dövlət Universitetində onun 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər - konfranslar, mühazirələr, görüşlər keçirilir, kitablar nəşr olunur, müsabiqələr təşkil edilir. Bugünkü konfrans da BDU-nun Ulu Öndərin 100 illik yubileyi ilə bağlı tədbirlər planına müvafiq olaraq keçirilən növbəti tədbirlərdən biridir.

Rektor qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtması bütün sahələrdə olduğu kimi, ölkə mediasının da inkişafında mühüm dəyişikliklərə səbəb oldu. Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olması, təhlükəsizliyin təmini, sosial-iqtisadi problemlərin tədricən yoluna qoyulması söz, fikir azadlığının qorunması sahəsində irəliləyişə zəmin yaratdı. Eyni zamanda, media fəaliyyətinin əsaslandığı qanunvericilik bazasının təkmilləşdirilməsi sahəsində görülən tədbirlər mətbuatın, bütövlükdə medianın inkişafına yol açdı.

Ümummilli Lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanan Konstitusiyada mətbuata ayrıca diqqət yetirildi. Bununla da Azərbaycanda mətbuatın inkişafına əngəl yaradan bir sıra bürokratik maneələr aradan qaldırıldı. Ulu Öndərin Sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olundu, habelə müvafiq struktur islahatları aparıldı. Bir sıra qəzetlərin Azərbaycan nəşriyyatına olan borcları ləğv edildi. Bu gün Medianın İnkişafı Agentliyi, Azərbaycan Respublikası Audiovizual Şurası, Azərbaycan Mətbuat Şurası kimi qurumların fəaliyyəti media siyasətinin məntiqi davamı və nəticəsidir.

Sonra Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş "BDU-nun dünya şöhrətli məzunu" adlı videoçarx nümayiş olunub.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, Ulu Öndər istər sovetlər dönəmində, istərsə də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi vaxtda xalqımızın milli-mənəvi dəyərlərinin yaşadılmasına, daha da möhkəmlənməsinə böyük önəm verdiyindən medianın işini, jurnalist əməyini daim yüksək qiymətləndirib: "Azərbaycan mətbuatı Ümummilli Liderin siyasi uzaqgörənliyindən irəli gələn dövlət maraqlarımızın qorunması, xalqımızın haqq səsinin dünyaya çatdırılması kimi əhəmiyyətli funksiyasını məsuliyyətlə yerinə yetirməkdədir.

(ardı 2-ci səhifədə)

## BDU-da Keyfiyyət Təminatı Mərkəzi yaradılıb

➔Səh.12

(Əvvəli 1-ci səhifədə)

# BDU-da "Müasir Azərbaycan mediası - peşəkarlıq standartları və yeni trendlər" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib





***Ulu Öndərin müstəqil dövlət quruculuğu sahəsində müstəsna və əvəzedilməz fəaliyyətinin işıqlandırılması Azərbaycan mediasının əsas mövzusu olmaqla, dövlətçilik tariximizin canlı salnaməsini təşkil edir.***

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsvermə yolu ilə qəbul edilmiş Konstitusiyamızda söz, fikir və məlumat azadlığı ilə bağlı konkret müddəalar əksini tapıb. Onun siyasi iradəsi və böyük səyləri nəticəsində Azərbaycanda plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılıb. Bunun bariz nümunəsi kimi Azərbaycan Respublikası Prezidentinin 6 avqust 1998-ci il tarixli Fərmanı ilə Nazirlər Kabineti nəzdində mətbuatda dövlət sirlərini mühafizə edən baş idarənin ləğv edilməsini göstərmək olar. Medianın fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılması, Azərbaycanda demokratik mətbuatın formalaşması və sürətli inkişafının təmin edilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır". Agentlik sədri həmçinin qeyd edib ki, hazırda Ulu Öndərin siyasətini və ənənələrini müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev medianın inkişafına əlverişli şərait yaradılmasını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid isə bildirib ki, Ulu Öndər Heydər Əliyevin milli jurnalistikamızın inkişafı sahəsində ən böyük xidmətlərindən biri KİV üzərində senzuranın tamamilə ləğv edilməsi olub. Ulu Öndər cəmiyyətdə jurnalistlərə münasibətin formalaşmasında önəmli rol oynayıb. O diqqətə çatdırıb ki, Mətbuat Şurası və BDU-nun Jurnalistika fakültəsinin birgə təşkilatçılığı ilə jurnalistlərin Ümummilli Lider Heydər Əliyev haqqında xatirələrindən ibarət kitab çap olunacaq.

BDU-nun Jurnalistika fakültəsinin Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli, Bakı Slavyan Universitetinin Jurnalistika kafedrasının müdiri Vüqar Rəhimzadə, Ulu Öndərin tərcüməçisi Çərkəz Qurbanovun qızı, Azərbaycan Dillər Universitetinin Beynəlxalq jurnalistika şöbəsinin müdiri Nərgiz Qurbanova, "ARB 24" telekanalının icraçı direktoru Radik İsmayılov, BDU-nun Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli çıxışlarında Ümummilli Liderin söz və məlumat azadlığının təmin edilməsi, mütərəqqi qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların müstəqilliyinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi sistemli tədbirlər nəticəsində Azərbaycan mediasının sürətli inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıblar.

Konfrans "Heydər Əliyev və Azərbaycan mediası", "Müasir dövrdə informasiya müharibəsi və media texnologiyaları", "Media savadlılığı cəmiyyətdə informasiya mübadiləsinin zəruri amili kimi" adlı bölmə iclasları ilə davam edib.

# BDU-nun İctimai Nəzarət Şurasının üzvləri ilə görüş



***İyulun 7-də BDU-nun rektoru Elçin Babayev BDU-nun İctimai Nəzarət Şurasının üzvləri ilə görüşüb.***

Əvvəlcə BDU İctimai Nəzarət Şurasının üzvü, “Moderator.az” saytının iyunun 18-də vaxtsız vəfat edən rəhbəri, tanınmış jurnalist Zülfüqar Hüseynzadənin əziz xatirəsi yad edilib.

Rektor Elçin Babayev Şura üzvlərinə yekun dövlət attestasiyası, yaz imtahan sessiyasının təşkili, BDU-da son zamanlar həyata keçirilən islahatlar, tədris, elm fəaliyyəti, ikili diplom proqramları barədə məlumat verib. Qeyd edib ki, 2022/2023-cü tədris ilinin yaz imtahan sessiyasında 704 qrup üzrə 15 mindən çox tələbə, 240 ixtisaslaşma üzrə 1000-ə yaxın magistrant iştirak edib. İyulun 6-dan 12-dək isə isə üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbə və magistrantlara şərait yaradılması nəzərdə tutulub.

Apelyasiya Komissiyasının sədri Elşad Qurbanov isə sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif, Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılması barədə məlumat verib.

İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev, Şura üzvləri Əminə Ağzadə, Rəşad Məcid, Eldar Qocayev, Lalə Nurəddinqızı BDU-da aparılan işləri yüksək dəyərləndirib, öz təkliflərini səsləndiriblər. Müzakirələrdə universitetdə tədris prosesinin təşkili, Universitetin gələcək inkişafı, müəllim-tələbə münasibətləri kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# BDU və İsrail Yerusəlim İbrani Universitetinin ikili diplom proqramına qəbulla əlaqədar infosessiya

***İyulun 7-də BDU və İsrail Yerusəlim İbrani Universitetinin (HUJI) ikili diplom proqramına qəbulla əlaqədar infosessiya keçirilib.***

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, iki universitet arasında ikili diplom proqramı üzrə əməkdaşlıq müqaviləsi bu ilin may ayında imzalanıb. BDU və HUJI arasında imzalanmış magistratura səviyyəsində ”Biotexnologiya” ixtisaslaşması üzrə ikili diplom proqramına qəbul müvafiq tədris ilində mərkəzləşdirilmiş qəbul imtahanında əldə olunmuş nəticələr əsasında Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır. Rektor BDU-nun 30-dan çox tələbəsinin artıq proqrama qoşulmaq üçün müraciət etdiyini vurğulayıb. O, bunun həmin tələbələrin həyatında dönüş nöqtəsi olacağını qeyd edib: “Bu, BDU-nun 11-ci ikili diplom proqramıdır. BDU və HUJI arasında ikili diplom proqramının əvvəlkilərdən fərqi onun tamamilə dövlət tərəfindən dəstəklənməsidir. Biotexnologiya müasir dövrdə ən çox ehtiyac duyulan ixtisaslardandır. 10-dan artıq Nobel mükafatçısı olan HUJI dünyada bu sahədə ən qabaqcıl universitetlərdəndir”.

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli isə qeyd edib ki, adıçəkilən layihə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”na əsasən həyata keçirilir. İndiyədək Dövlət Proqramı çərçivəsində ən prioritet sahələr üzrə 6 ikili diplom proqramı imzalanıb. Bu, həmin proqramlardan beşincisidir. Proqramın daha bir üstünlüyü tələbələrimizə təhsillə yanaşı, tədqiqat imkanı da yaratmasıdır.

Nicat Məmmədli həmçinin ikili diplom proqramına qəbul olmaq istəyən tələbələrin əməl etməli olduqları nüansları izah edib.

Sonra tələbələrin sualları cavablandırılıb.



# Müdafiə Sənayesi Nazirliyi ilə BDU arasında elmi-texniki məhsulun hazırlanması və tətbiqi haqqında müqavilə imzalanıb

***İyulun 21-də Müdafiə Sənayesi Nazirliyi ilə BDU arasında elmi-texniki məhsulun hazırlanması və tətbiqi haqqında müqavilə imzalanıb.***

Müqaviləni müdafiə sənayesi naziri Mədət Quliyev və BDU-nun rektoru Elçin Babayev imzalayıblar.

Müqaviləyə əsasən, BDU Müdafiə Sənayesi Nazirliyinin sifarişi əsasında elmi-texniki məhsulun hazırlanması və istehsalata tətbiqi işinin təşkilinə dair xidmət göstərəcək.



Mərasimdə çıxış edən müdafiə sənayesi naziri Mədət Quliyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə müdafiə sənayesi sürətlə inkişaf edir, yerli müdafiə məhsullarının istehsalına xüsusi diqqət göstərilir. Yerli müdafiə sənayesini daha da inkişaf etdirmək üçün ölkənin elmi müəssisələri ilə əməkdaşlıq xüsusi önəm daşıyır. Bu baxımdan BDU ilə elmi-texniki məhsulun hazırlanması və tətbiqinə dair imzalanan müqaviləni əhəmiyyətli əməkdaşlıq adlandırmaq olar.

BDU-nun rektoru Elçin Babayev də imzalanan müqavilənin ölkəmizin müdafiə sənayesinin inkişafı üçün əhəmiyyətini qeyd edib. Rektor diqqətə çatdırıb ki, son illər BDU-da aparılan islahatlar nəticəsində elm-innovasiya-sənaye-istehsalat əlaqələri güclənib, tətbiq xarakterli tədqiqatların sayı çoxalıb. BDU-nun beş əsas prioritetindən biri kimya və yeni materiallar istiqaməti üzrədir. BDU-da müdafiə sənayesi istiqamətində yeni ixtisasların açılması və kadr hazırlığının aparılması istiqamətində işlər aparılır. Rektor müqavilə əsasında hazırlanacaq elmi-texniki məhsulun keyfiyyətinin yüksək olacağını və ölkəmizin müdafiə qabiliyyətinin daha da möhkəmlənməsinə töhfə verəcəyini qeyd edib.

Tərəflər birgə işçi qrupun yaradılması barədə də razılığa gəliblər.

# BDU və Türkiyənin Hacettepe Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb

***İyulun 21-də BDU ilə Türkiyənin Hacettepe Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb.***

Müqaviləni BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov və Hacettepe Universitetinin Erasmus koordinatoru Ruhtan Yalçıner imzalayıb. Müqavilə çərçivəsində bakalavr, magistr, tədqiqatçılar və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Qeyd edək ki, Hacettepe Universiteti Türkiyənin ən nüfuzlu universitetlərindən biridir. 16 fakültə, 15 institut, 4 peşə məktəbi və bir konservatoriyanın fəaliyyət göstərdiyi Hacettepe Universiteti QS WUR reytinqində 761-770-ci pillədədir.

# BDU və Türkiyənin Çukurova Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb

***İyulun 27-də BDU ilə Türkiyənin Çukurova Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Çukurova Universitetinin rektoru Meryem Tuncel imzalayıb. Müqavilə çərçivəsində bakalavr, magistr, tədqiqatçılar və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Qeyd edək ki, Çukurova Universiteti Türkiyənin ən nüfuzlu universitetlərindən biridir. QS WUR reytinqində 1401-ci pillədə yer alan Çukurova universitetində 19 fakültə, 4 institut, 11 peşə məktəbi və 1 konservatoriya fəaliyyət göstərir və 38000-ə yaxın tələbə təhsil alır.

# BDU Ruminiyanın Alexandru İoan Cuza İasi Universiteti ilə mübadilə protokolu imzalayıb

***İyulun 28-də BDU ilə Ruminiyanın Alexandru İoan Cuza İasi Universiteti arasında "Erasmus" mübadilə protokolu imzalanıb.***

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Alexandru İoan Cuza İasi Universitetinin rektoru Tudorel Toader imzalayıb.

Müqavilə çərçivəsində bakalavr, magistr, tədqiqatçıların və akademik heyətin mübadiləsi nəzərdə tutulur.

Əsası 1860-cı ildə qoyulmuş Alexandru İoan Cuza İasi Universitetində 25000 tələbə təhsil alır. Universitetdə 15 fakütədə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

# BDU-nun 5 illik akkreditasiya şəhadətnaməsi təqdim edilib

***İyulun 31-də BDU-da Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) İdarə Heyətinin sədri Ülkər Səttarova ilə görüş keçirilib.***

Görüşdə çıxış edən rektor Elçin Babayev Universitetin əsas vəzifəsinin ölkəmiz üçün yüksəkixtisaslı kadrlar hazırlamaq olduğunu vurğulayıb. Rektor diqqətə çatdırıb ki, akkreditasiya ali təhsil müəssisəsinə güclü və zəif tərəflərini müəyyənləşdirməyə və strateji inkişaf proqramı əsasında inkişaf etməsinə imkan verir. BDU bu prosesi uğurla həyata keçirib, Agentliyin təklif və tövsiyələrini nəzərə alıb.




TKTA-nın İdarə Heyətinin sədri Ülkər Səttarova isə qeyd edib ki, akkreditasiya prosesinin əsas məqsədi təhsilin müxtəlif pillələrində keyfiyyətin təminatı sisteminin qurulmasıdır. TKTA-nın İdarə Heyətinin sədri akkreditasiya prosesini uğurla tamamladığına görə BDU rektorunu təbrik edib, Universitetin gələcək fəaliyyətində uğurlar arzulayıb. Daha sonra rektor Elçin Babayevə Elm və Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 8 iyun 2023-cü il tarixli qərarı ilə BDU-nun 5 (beş) il müddətində akkreditasiya olunduğu ilə bağlı şəhadətnaməni təqdim edib.

# İstanbulda BDU-nun həmtəşkilatçılığı ilə ICESCO-nun Peyk Modeli Təlimi və Aerokosmos Simpoziumu keçiriləcək

***31 iyul - 5 avqust tarixlərində Türkiyənin İstanbul şəhərində İslam Dünyası, Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) tərəfindən Peyk Modeli Təlimi və Aerokosmos Simpoziumu (Model Satellite (CanSat) Training Workshop & Aerospace Symposium) təşkil olunacaq.*** BDU-nun həmtəşkilatçılığı ilə keçiriləcək tədbirin məqsədi İslam dünyası ali təhsil müəssisələrinin tələbələri və əməkdaşları arasında kosmik sahəyə marağın artırılması, bu sahədə fundamental bilik və bacarıqlar formalaşdırılması, yerli kadrların yetişdirilməsidir. Tədbirdə ölkəmizi təmsil edəcək BDU



komandası tərəfindən hazırlanan "CANSAT1919" və "CubeSat" model peykləri də sərgilənəcək. Havada olan qazların miqdarını, nisbətini, maqnit sahəsini və havanın nəmlik dərəcəsini ölçə bilən bu model peyk sistemləri eyni zamanda səmada çəkiliş edərək bütün məlumatları anlıq olaraq Yer idarəetmə stansiyasına (YİS) ötürmək qabiliyyətinə malikdir.

Elektrik enerjisi ehtiyacını üzərində olan monokristal günəş panellərindən təmin edən "CANSAT1919" və "CubeSat" avtomatik olaraq yerə eniş edə, üzərində olan məsafə sensorları sayəsində peyk passiv enmə sistemini (paraşütü) və stabilləşdirici ayaqları avtomatik hərəkətə gətirə bilir.

# Azərbaycanda Lider – Xalq tandeminin başlanğıcı

***Dünyada xalqlar üçün azadlıqdan, dövlət üçün müstəqillikdən böyük nemət yoxdur. İnsan azad, suveren, demokratik dövlətdə yaşayırsa, bundan böyük xoşbəxtlik ola bilməz. Azərbaycan artıq 32 ildir ki, müstəqil demokratik, hüquqi və dünyəvi dövlətdir. Xalqımızın bu xoşbəxtliyə qovuşması uğrunda mübarizənin öndəri Ümummilli Lider Heydər Əliyevdir.***



Böyük filosof Platon demişdir ki, ədalət və müdrikliklə demokratik və güclü hakimiyyətin bir yerdə olacağı gün bəşəriyyət xoşbəxtliyə qovuşacaqdır. Ümummilli Lider, dünya şöhrətli siyasətçi və dövlət xadimi, uzaqgörən şəxsiyyət və qüdrətli strateq Heydər Əliyevə bəşəri şöhrət və əbədiyyət qazandıran da məhz onun Azərbaycan məkanında bu mənəvisiyasi xüsusiyyətləri bir araya gətirməyi bacarmasıdır. Tanınmış soydaşımız, azərbaycanşünas alim, London Universitetinin professoru Turxan Gəncəyi deyirdi: "Mən istiqlalımızın sabahından daha nigaran deyiləm. Çünki millətimin üçrəngli bayrağı Heydər Əliyev kimi bir rəhbərin müqtədir əlindədir".

Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu bir qərinəlik dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu illərdə Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətini və xalqı-nı zamanın ən çətin sınaqlarından çıxararaq öz ölkəsinin ictimai-siyasi, iqtisadi və mədəni tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında qeyd edilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir". Azərbaycan xalqı XX əsrin sonunda tarixi suverenliyinə məhz Heydər Əliyevin öndərliyi ilə qovuşmuş, yeni əsrə və yeni minilliyə də onun müəyyən etdiyi yol ilə qədəm qoymuşdur.

XX əsr Azərbaycan tarixinin 34 ilini ölkəsinin, xalqının nicatına, inkişafına həsr etmiş Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını yaratmış, xalqı milli müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq qazanmışdır. Azərbaycan xalqının dünya şöhrətli tarixi şəxsiyyəti Ulu Öndər Heydər Əliyevin siyasi obrazı xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir.

Ümummilli Lider Heydər Əliyev şəxsiyyətini, onun Azərbaycan üçün misilsiz nəticələrə gətirib çıxaran fəaliyyətini öyrəndikcə, araşdırdıqca, əslində müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, gələcəyini, Azərbaycan dövlətinə, onun qorunub saxlanmasına, dinamik inkişafına, dünya inteqrasiya sisteminə qovuşmasına həsr etdiyi titanik fəaliyyətini və dövlət quruculuğu prosesini öyrənmiş oluruq.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ali rəhbərliyə birinci gəlişi və 34 illik liderliyinin birinci mərhələsi 1969–1982-ci illəri əhatə edir. Bu mərhələdə Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycanın sosial-iqtisadi böhran vəziyyətinin, uzunmüddətli (60-cı illərin) geriliyinin təhlili verildi, səbəbləri açıqlandı və çıxış yolları müəyyənləşdirildi. Bunun nəticəsi idi ki, həmin vaxtdan da Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başlamışdır. Ümummilli Liderin hakimiyyətə gəlməsi ilə Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüş mərhələsinin başlanğıcı qoyulmuş, intibah dövrü başlamışdır.

Xalqını və ölkəsini bütün varlığı ilə sevən bu nadir insanın rəhbərliyi, zəngin təcrübəsi sayəsində qısa müddətdə respublikanın iqtisadi inkişafının konsepsiyası hazırlanmışdır. İqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki və müasir istehsal sahələrinin yaradılması ilə bağlı kompleks tədbirlər həyata keçirilmişdir. 1969–1982-ci illərdə müdrik, uzaqgörən, zəngin təcrübəyə əsaslanan milli siyasət əsasında Azərbaycanın iqtisadiyyatında istehsalın sürəti xeyli genişlənmiş, məhsuldarlıq yüksəlmişdir.

O illərdə bütün sahələrdə əhəmiyyətli uğurlar, nailiyyətlər əldə edilmişdir. Azərbaycanda elmi-texniki tərəqqidə böyük irəliləyişlər baş vermişdir. Ölkədə yeni müasir istehsal sahələri yaradılmış, 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektləri istifadəyə verilmiş, 630 min nəfərlik yeni iş yerləri açılmışdır. Nəticədə, əhalinin maddi rifah halı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır.

1969–1982-ci illərdə neft hasilatının, neft emalı və qazçıxarma sahələrinin inkişafında da yeni mərhələ başlamışdır. Bakı Məişət Kondisioner-ləri, "Azon", "Ulduz", Cihazqayırma, Sumqayıt Kompressorlar, Dərin Dəniz Özülləri və s. zavodlar da məhz bu il-lərin nəhəng tikililəridir. 1969–1982-ci illərdə respublika sənayesinin yeni sahələri olan elektrotexnika, cihazqayırma, elektron, dəzgahqayırma, avtomatlaşdırma kimi yeni istehsal sahələrinin yaradılmasına başlanılmışdır. Qısa müddətdə Heydər Əliyevin fədakar əməyi sayəsində Azərbaycan SSRİ-də elektrotexnika sənayesinin ən böyük və əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdir.

Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi birinci mərhələdə sənayenin sürətli, kənd təsərrüfatının dinamik inkişafı, respublikanın inkişafında ən mühüm iqtisadi nəticələrdəndir. 1980-ci illərin ortalarına qədərki dövrdə sənaye istehsalı 2,2 dəfə artmış, məhsulun orta illik artım sürəti 8,2 faiz olmuş və bu, əvvəlki onillikdəkindən 19 faiz çox olmuşdur. Təkcə neft hasilatında istehsalın həcmi 2,8 dəfə, həmçinin maşınqayırma və metal emalı 3,3 dəfə, kimya və neft kimyası 2,8 dəfə artmışdır.

Bu illərdə sənayedə əmək məhsuldarlığı 1,7 dəfə yüksəlmiş, 4 min 400 yeni növ maşın, cihaz, avadanlıq və digər məmulat yaradılmışdır ki, onlardan 400-ü keçmiş SSRİ-də ilk dəfə həyata vəsiqə almışdır. Həmçinin, bu illərdə respublika üzrə 5,5 milyon ton pambıq, 7 milyon 399 min ton üzüm istehsal olunmuşdur. Təkcə 1981-ci ildə pambıq istehsalı 1 milyon 15 min 300 tona, üzüm istehsalı 1 milyon 616 min tona çatdırılmışdır.

1969–1982-ci illərdə baş verən dəyişikliklərin miqyası, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatları, xalqın maddi rifahının yüksəlməsi Azərbaycanda mədəniyyət sahələrində böyük inkişafa səbəb olmuşdur. Respublikada geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilmişdir. Şəhərlər böyümüş, yeni yaşayış massivləri salınmışdır. O dövrdə Bakıda böyük konserttoplantı mərkəzi – indiki Heydər Əliyev sarayı, Gülüstan şadlıq sarayı və digər möhtəşəm sosial-mədəni obyektlər inşa edilmişdir.

Əsl milli Lider olan Heydər Əliyev Azərbaycanda elmin inkişafına və təhsilin dünya standartları səviyyəsinə qaldırılmasına xüsusi diqqət vermişdir. Dahi şəxsiyyətin Azərbaycan təhsilinin inkişafında xidmətlərindən biri də 1969–1982-ci illərdə şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox nüfuzlu ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbay-canlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratması olmuşdur.

Beləliklə, XX əsrin 70-ci illəri – 80-ci illərin əvvəlləri Azərbaycan tarixində yüksəliş dövrü kimi səciyyələnir və qeyd edə bilərik ki, müstəqilliyimizin əsasları bu illərdə qoyulmuşdur.

Ümummilli Lider Heydər Əliyevin 34 illik dövlətçilik fəaliyyətinin ikinci mərhələsi 1982–1987-ci illəri əhatə edir. 1982-ci ilin dekabrında Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və Kreml liderlərindən biri olmuşdur. Azərbaycanın qüdrətli oğlu sovet xüsusi xidmətinin sıravi leytenantından general-mayor rütbəsinədək, kommunistlər ordusunun sıra nəfərindən Kreml liderləri, SSRİ-nin rəhbərlərindən birinə qədər yüksəlmiş-dir.

Qeyd edək ki, Sovet imperiyası, totalitar kommunist rejimi şəraitində həm də müsəlman və türk oğlu üçün belə yüksək səviyyəyə yüksəlmək hər siyasi xadimin hünəri deyildi. Şovinist əhval-ruhiyyəli SSRİ rəhbərliyinin yuxarı eşelonunda təmsil olunmaq, keçmiş Sovetlər Birliyində, həmçinin dünyada gedən proseslərə təsir göstərə biləcək fəaliyyət, cəsarət, iradə sahibi olmaq – bunlar yalnız Ümummilli Lider Heydər Əliyevə nəsib olmuşdur.

Keçmiş SSRİ-nin şovinist, millətçi rəhbərliyi, Kremli və digər ittifaq qurumlarını hörümçək toru kimi bürümüş erməni lobbisi, sovet diktatoru M.Qor-baçovun məkrli ermənipərəst ətrafı Heydər Əliyevin qüdrətli, qətiyyətli şəxsiyyət, fenomen lider olmasına, ölkə daxilində daim yüksələn nüfuzuna, dünyada türk oğlu kimi geniş şöhrətlənməsinə dözə bilmirdilər.

1982–1987-ci illərdə sovet super-dövlətinin ali rəhbərlərindən biri olan bu insanın geniş səlahiyyət, kəsərli hökm sahibi olmasına isə ittifaq dövlətinin hər yerinə və hər sahəsinə yayılmış ermənilər həsəd və paxıllıqla baxır, bu gerçəkliklə barışa bilmirdilər. Sovet hökumətində Heydər Əliyevə böyük səlahiyyətlər verilmişdi. Nəhəng bir ölkənin – SSRİ-nin 20-yə yaxın böyük nazirliyinə məhz Heydər Əliyev rəhbərlik edirdi. Baykal–Amur magistralı kimi nəhəng layihə, magistral xətt boyunca yüzlərlə yaşayış məntəqəsi, müəssisə və obyekt onun rəhbərliyi altında inşa olunurdu.

Lakin XX əsrin 80-ci illərin ortalarından başlayaraq beynəlxalq aləmdə geosiyasi vəziyyət kəskin şəkildə dəyişdi. Dünyada gedən bu proseslər SSRİ-də də ictimai-siyasi, sosial-iqtisadi vəziyyətə öz təsirini göstərdi. Belə bir şəraitdə sovet rəhbərliyinə, ermənipərəst, qatı şovinist, türk xalqlarına kəskin və barışmaz nifrəti ilə fərqlənən Mixail Qorbaçov gətirildi. Onun Qarabağın dağlıq hissəsini Ermənistana birləşdirməyə çalışan erməni müşavirləri Heydər Əliyevi qarşılarında ciddi maneə görürdülər. M.Qorbaçovun yenidənqurma adı altında yeritdiyi dağıdıcı siyasi xəttlə razılaşmayan Heydər Əliyev, nəhayət, ciddi təzyiq və təhdidlərlə 1987-ci ilin payızında SSRİ rəhbərliyindən uzaq-laşdırıldı.

Bununla da, Qarabağın dağlıq hissəsində, daşnak Ermənistanda fitnə ocağı alovlandı. Ölkəmizə qarşı erməni təcavüzü, vandalizmi, xalqımıza qarşı terror, soyqırımı və deportasiya kimi irimiqyaslı qəsdlər gerçəkləşdi. Xalqımızın böyük oğlu sovet rəhbərliyindən istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı.

Ulu öndərin dövlətçilik fəaliyyətinin üçüncü mərhələsi 1991–1993 və 1993–2003-cü illəri əhatə edir. Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev 1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədrinin müavini olmuşdu. O, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilən təsis qurultayında partiyanın sədri seçilmişdi.

1991-ci ilin 18 oktyabrında müstəqilliyini bəyan edən Azərbaycan Respublikası, əslində, real suverenliyinə 1993-cü ilin iyunundan sonrakı dövrdə nail oldu. 1993-cü ilin may–iyununda siyasi-hərbi böhranın son dərəcə kəskinləşməsi ilə ölkədə xaos, vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı. Müstəqilliyin və dövlətçiliyin itirilməsi təhlükəsinin yarandığını görən xalqın çox ciddi tələbi və xahişindən sonra Heydər Əliyevin yenidən Azərbaycanda hakimiyyətə qayıdışı baş verdi.

Bununla da ölkəmiz məhv olmaq təhlükəsindən xilas oldu və Azərbaycanda milli intibah dövrünün ikinci mərhələsi (1993–2003-cü illər) başlandı. Bu dövr Ümummilli liderin sözləri ilə desək, "müstəqilliyin əldə edilməsindən daha çətin olan onun qorunması və möhkəmləndirilməsi" ilə xarakterizə olunurdu. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Təcrübəli, uzaqgörən dahi şəxsiyyət, ilk növbədə ölkədə vətəndaş müharibəsinin, ölkənin parçalanmasının, müstəqilliyimizin parçalanmasının qarşısının alınmasına nail oldu.

Ümummilli lider Heydər Əliyev qəti əmin oldu ki, sosial-iqtisadi böhran keçirən respublika iqtisadiyyatını dirçəltmək, dinamik inkişafı təmin etmək, ölkənin dünya inteqrasiya sisteminə qovuşmasına nail olmaq üçün ən sanballı mənbə neft amili ola bilər. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Artıq 1994–1996-cı illərdə iqtisadiyyatda tənəzzül meyillərinin qarşısı alındı. Eyni zamanda, ölkədə yeni iqtisadi sistemin qurulması, aqrar islahatların aparılması, sahibkarlığın inkişafı ilə əlaqədar qanunvericilik bazası yaradıldı.

Azərbaycan ordusunda hökm sürən intizamsızlığa son qoyuldu. Vahid ordu sisteminin yaradılmasına başlanıldı. Əsil ordu quruculuğu mərhələsi başladı. Ordunun döyüş qabiliyyətinin, vətənpərvərliyinin artırılması, möhkəmləndirilməsi, ən müasir silah və texnikalarla təchiz edilməsi, peşəkar hərbiçilərin formalaşdırılması istiqamətində genişmiqyaslı işlər başlandı.

Ulu öndər çevik, düşünülmüş və uzaqgörən siyasətilə 1994 və 1995-ci illərdə Azərbaycanın dövlət müstəqilliyinin əleyhinə olan qüvvələrin dövlət çevrilişinə yönəlmiş cəhdlərinin qarşısını aldı.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. 1993–2003-cü illərdə onun apardığı daxili siyasət ölkənin genişmiqyaslı tərəqqisinə, hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarının təmin olunmasına xidmət etmişdir. Bu illərdə Ümummilli lider Heydər Əliyevin fəaliyyətində sosial-iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, dinamik inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr təşkil etmişdir.

Beləliklə, 1995-ci ilin ortalarında Azərbaycan dövlətinin inkişafında yeni mərhələ başladı. 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk konstitusiyasının qəbulu ilə paralel demokratik seçkilər əsasında Azərbaycan Respublikasının Milli Məclisi formalaşdırıldı, özünüidarəetmə orqanları – bələdiyyələr yaradıldı.

1993–2003-cü illərdə həyata keçirilən daxili və xarici siyasət göstərdi ki, Ulu öndər Heydər Əliyev təcrübəli, görkəmli, dünya miqyaslı tarixi şəxsiyyət kimi Azərbaycan gəmisini tarix okeanının tufanlarından, qasırğalarından sağ-salamat keçirib, uğurla irəliyə - gələcəyə aparmağa qadir fenomen liderdir.

Yeni Azərbaycanın qurucusu Heydər Əliyev ölkənin təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüyündən respublikanın milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində gərgin, səmərəli və yorulmaz fədakar fəaliyyət göstərmişdir. Həmçinin, bir çox əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanılmışdır.

Azərbaycana 34 il rəhbərlik etməklə Ulu öndər Azərbaycanın, bütün dünya azərbaycanlılarının lideri olmaqla bərabər, dünyanın böyük, dünyamiqyaslı xadimləri səviyyəsinə yüksəlmişdir. Türk dünyasının böyük lideri Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən tarixi şəxsiyyət, böyük dövlət xadimi idi.

Azərbaycanın Avropa Şurasına və bir sıra beynəlxalq təşkilatlara, birliklərə daxil olması Ümummilli liderin xarici siyasətinin ən mühüm uğurlarından idi. Azərbaycan xalqının, tarixin XX əsrdə yetirdiyi dünya miqyaslı tarixi şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası, uzaqgörənliyi sayəsində iki əsrin və iki minilliyin qovşağındakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq, üçüncü minilliyə - XXI əsrə inamla qədəm qoymuşdu.

Xalqımızın dahi oğlu, Ümummilli lideri, görkəmli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyevin əziz və işıqlı, şərəfli ömür yolu, xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

***İbrahim ZEYNALOV,***
*Bakı Dövlət Universitetinin professoru*

# BDU Elmi Şurasının 2022/2023-cü tədris ilində son iclası

***İyulun 11-də BDU-nun Elmi Şurasının 2022/2023-cü tədris ilində son iclası keçirilib.***

Rektor Elçin Babayev gündəlikdə olan məsələləri iclas iştirakçılarının diqqətinə çatdırıb.

Tədris və təlim texnologiyaları üzrə prorektor Fərda İmanov iclasda 2022/2023-cü tədris ilinin yaz semestrinin imtahan sessiyası və Yekun Dövlət Attestasiyasının nəticələri barədə təqdimatla çıxış edib. İmtahan sessiyasının nəticələrinə əsasən, müvəffəqiyyət göstəricisi 83, keyfiyyət göstəricisi isə 39 faiz olub.




Apelyasiya Komissiyasının sədri Elşad Qurbanov sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif, Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılması barədə məlumat verib. Yaz imtahan sessiyasının nəticələri Elmi Şura üzvləri tərəfindən məqbul hesab edilib.

Daha sonra BDU-nun Antiplagiat Komissiyasının rəhbəri Kəmalə Alışevanın və Fizika fakültəsinin dekanı Bəxtiyar Paşayevin hesabatları dinlənilib.

# BDU-nun "Web of Science"də indekslənən "TWMS Journal Pure and Applied Mathematics" jurnalı 329 beynəlxalq nəşr arasında 8-ci yerdədir

***"Clarivate Analitics" Beynəlxalq İnformasiya Agentliyinin bu günlərdə açıqlanan hesabatına əsasən, Türk Dünyası Riyaziyyat Cəmiyyətinin və BDU-nun "Web of Science" bazasında indekslənən "TWMS Journal Pure and Applied Mathematics" jurnalının impakt faktoru (təsir əmsalı) 2.722-dən 3.8-ə qədər yüksəlib. Hazırda jurnalın 5 il üzrə orta impakt faktoru 2.4 təşkil edir.***

Jurnal "Riyaziyyat" kateqoriyası üzrə "Web of Science" bazasında indekslənən 329 beynəlxalq nəşr arasında 8-ci yerdə və "Tətbiqi riyaziyyat" kateqoriyası üzrə 267 beynəlxalq nəşr arasında 16-cı yerdə qərarlaşıb.

2010-cu ildən başlayaraq ingilis dilində nəşr olunan jurnalda nəzəri və tətbiqi riyaziyyatın müxtəlif sahələri üzrə elmi məqalələr dərc edilir. Jurnalın redaksiya heyətinə dünyanın 18 ölkəsindən 48 tanınmış alim daxildir. Jurnal 50-dən çox ölkənin universitet və elmi mərkəzlərində yayımlanır. Jurnalın indiyə qədər nəşr olunmuş 27 nömrəsində 270-dən artıq məqalə dərc edilib.

Qeyd edək ki, 2015-ci ildə jurnal "Clarivate Analitics" Beynəlxalq İnformasiya Agentliyinin "Emerging Sources Citation Index" və 2020-ci ildə isə "Science Citation Index Expanded" bazasına daxil edilib. Jurnalda dərc olunan məqalələr "MatReviews", "Zentrablatt" və "VINITI" kimi bazalarda arxivlənir.

# Portuqaliyanın Tomar Politexnik İnstitutunun nümayəndə heyəti ilə görüş

***İyulun 20-də BDU-da "Erasmus KA 171" beynəlxalq müəllim-tələbə mübadilə proqramı çərçivəsində Portuqaliyanın Tomar Politexnik İnstitutunun nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Tomar Politexnik İnstitutunun vitse-prezidenti Nuno Madeyra, professor Vasko Silva, İdarəçilik məktəbinin Elmi Şurasının prezidenti Selio Marques və beynəlxalq əlaqələr şöbəsinin müdiri Mariya Katroqa iştirak edib.***




BDU-nun rektoru Elçin Babayev qonaqlara Universitetin tarixi, elmi fəaliyyəti və beynəlxalq əlaqələri haqqında ətraflı məlumat verib. Universitetdə 16 fakültənin fəaliyyət göstərdiyini qeyd edən rektor Elçin Babayev BDU-da ali təhsilin bütün səviyyələrində 25000-ə yaxın tələbənin təhsil aldığını bildirib.

Rektor BDU-nun beynəlxalq əlaqələrində Avropa dövlətləri, o cümlədən Portuqaliyanın universitetləri ilə əməkdaşlığa xüsusilə önəm verildiyini vurğulayıb.

Görüşdə BDU ilə Tomar Politexnik İnstitutu arasında təhsilin müxtəlif istiqamətləri üzrə ikitərəfli əməkdaşlığın daha da genişləndirilməsi, qarşılıqlı anlaşma memorandumu, ikili diplom proqramı layihələri, o cümlədən "Erasmus KA 171" proqramı çərçivəsində tələbə, akademik və inzibati heyətin mübadiləsi müzakirə olunub.

Tomar Politexnik İnstitutunun vitse-prezidenti Nuno Madeyra İnstitutun fəaliyyəti, beynəlxalq əlaqələri haqqında danışıb, ikitərəfli əməkdaşlığın perspektivlərindən bəhs edib.

Qonaqlar BDU-nun maddi-texniki bazası ilə tanış olub, iki universitet arasındakı əməkdaşlığın uğurlu olacağını, bu istiqamətdə elm və təhsil müəssisələrinin üzərinə xüsusi vəzifə düşdüyünü diqqətə çatdırıblar.

*İyulun 7-də BDU-da Əməkdar elm xadimi, coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyevin 70 illik yubileyinə həsr olunmuş Respublika elmi seminarı keçirilib.*

# BDU-da coğrafiya elmləri doktoru, professor Vüsət Əfəndiyevin 70 illik yubileyinə həsr olunmuş Respublika elmi seminarı



Görkəmli alimin adına açılmış yeni auditoriyada təşkil olunan seminarda çıxış edən rektor Elçin Babayev bildirib ki, BDU tarix boyu Azərbaycanın elm və təhsilinin məbədi, milli ideologiyasının, ictimai fikrinin daşıyıcısı olub. Fəaliyyət göstərdiyi 104 il ərzində BDU hər zaman bu müqəddəs missiyasına sadiq qalıb, ölkəmiz üçün 200 mindən artıq yüksəkixtisaslı, peşəkar mütəxəssis yetişdirib. Heç şübhəsiz ki, BDU-nun dünya şöhrətli məzunu bu il 100 illik yubileyini böyük qürurla qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevdir. Ulu Öndərin "Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır" kəlamı BDU-ya verdiyi dəyərin, qiymətin bariz nümunəsidir. Rektor bildirib ki, BDU hər zaman ənənəyə sadiqlik, dəyərlərə hörmət ruhunu qoruyub saxlayıb. İctimai fikir tariximizdə, elmin, maarifin inkişafında əvəzedilməz xidmətlər göstərən BDU Universitet həyatında mühüm xidmətləri olmuş insanları daim qiymətləndirib, onların miras qoyduğu elmin, təhsilin keşiyində inamla dayanıb. Həmin nüfuzlu alimlərdən biri də Əməkdar elm xadimi Vüsət Əfəndiyevdir. Professor Vüsət Əfəndiyev ölkəmizin tanınmış coğrafiyaşünas alimlərindən olub, ömrünü BDU-da elm və təhsilin inkişafına həsr edib.

O, 1987-1991-ci illərdə Geologiya-coğrafiya fakültəsinin dekan müavini, 1991-1999-cu illərdə Coğrafiya fakültəsinin dekanı, 1999-2004-cü illərdə BDU-nun qiyabi və axşam şöbəsi üzrə prorektoru, 2004-2011-ci illərdə tədris işləri üzrə prorektoru, 2016-2019-cu illərdə BDU-nun Qazax filialının direktoru vəzifələrində çalışıb. 2007-2019-cu illərdə Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri olub. Hazırda Vüsət Əfəndiyevin yetirmələri Coğrafiya fakültəsində onun yolunu davam etdirirlər.

Coğrafiya fakültəsinin dekanı Məqsəd Qocamanov görkəmli alimin həyatı və elmi fəaliyyəti haqqında ətraflı məlumat verib. Qeyd edib ki, professor Vüsət Əfəndiyev 160-dan çox elmi əsərin, 7 monoqrafiya, 4 xəritə, 3 metodik göstəriş və 15 proqramın müəllifi olub.

BDU-nun Coğrafi ekologiya kafedrasının professoru Şövqisəfa Göyçayski, İqtisadi və sosial coğrafiya kafedrasının professoru Tapdıq Həsənov, Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına Coğrafiya İnstitutunun baş direktoru Zakir Eminov, Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri Saleh Nağıyev, "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutunun Memarlıq-planlaşdırma və şəhərsalma şöbəsinin müdiri Rafiq Mirzəyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi texnologiyaları kafedrasının müdiri Oqtay Alxasov, BDU-nun Hidrometeorologiya kafedrasının müdiri İmran Abdullayev, Vüsət Əfəndiyevin qardaşı Məmmədəli Əfəndiyev çıxışlarında görkəmli alimin coğrafiya elmi, BDU qarşısında xidmətləri ni xatırladıb, müasir coğrafiyanın aktual problemlərinə dair mühazirələr deyiblər.

*İyulun 13-də Tarix fakültəsinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 54-cü ildönümünə həsr olunmuş konfrans keçirilib.*

# Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 54-cü ildönümü qeyd olunub



Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Ulu Öndər Heydər Əliyevin 1969-cu il iyulun 14-də ölkəmizdə siyasi hakimiyyətə gəlməsinin mühüm tarixi hadisə olduğunu bildirib. Qeyd edib ki, ömrünü dövlətinin, xalqının inkişafına, çiçəklənməsinə və rifahına həsr edən Ulu Öndərin adı Azərbaycanın tarixinə qızıl hərflərlə yazılıb. Ulu Öndər Heydər Əliyev 1969-1982-ci illərdə ölkəmizə rəhbərliyi dövründə Azərbaycan dövlətçiliyinin gələcək müstəqilliyinin siyasi-iqtisadi əsaslarını yarada bilib. Müdrik siyasətçi hakimiyyətə gəldiyi gündən etibarən bütün sahələri paralel sürətdə inkişaf etdirib. Azərbaycanda iqtisadi, siyasi, mədəni, aqrar, elm, təhsil sahələrində yüksək uğurlar və nəticələr əldə olunub. O zaman da, indi də ölkəmizin uğurlu inkişafının və intibahının təməlində Heydər Əliyev siyasəti dayanıb. Natiq Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı, müstəqilliyimizin qorunması və milli dövlətçiliyimizin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından ətraflı bəhs edib. Ulu Öndərin milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində gördüyünü, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirdiyini vurğulayıb.

Daha sonra çıxış edən Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri, dosent Azad Rzayev bildirib ki, Ulu Öndər Heydər Əliyev o dövr üçün çox cəsarətli ideyalar irəli sürüb, təhsil, mədəniyyət, iqtisadi inkişaf barədə geniş islahatlar həyata keçirib. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə yaradılmış iqtisadi potensial sonrakı mərhələlərdə - müstəqillik illərində Azərbaycan üçün çox əhəmiyyətli rol oynayıb.

*Azərbaycan daim özünün dünya şöhrətli alimləri ilə fərqlənib, Vətənimizin başını hər yerdə uca edən, ona şan-şöhrət gətirən layaqətli övladları ilə fəxr edib. Onların sırasında görkəmli filoloq-ədəbiyyatşünas, bacarıqlı təhsil təşkilatçısı, fəal ictimai xadim olan professor Ədibə xanım Paşayevanın özünəməxsus yeri var.*

# Görkəmli alim və müəllim – Ədibə Paşayeva

Ədibə Paşayeva görkəmli ədəbiyyatşünas-alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin ailəsində dünyaya göz açıb. Mir Cəlal ədəbiyyat tariximizin böyük ədəbi siması, Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafında əvəzedilməz xidmətlər göstərmiş bir alim olmaqla yanaşı, yüksək mənəvi-əxlaqi dəyərlər daşıyıcısı olan bir şəxsiyyət kimi tarixdə qalıb. Ədibə xanım Paşayeva bu ocağın ənənələrinin layaqətli davamçılarındandır.

Ədibə Paşayeva 18 iyul 1943-cü ildə Bakı şəhərində anadan olub. 1960-1965-ci illərdə Bakı Dövlət Universitetində təhsil alıb. Ədibə xanım ali təhsilini bitirdikdən sonra əmək fəaliyyətinə elə doğma Universitetimizdə başlayıb. Rus ədəbiyyatı kafedrasının müəllimi, baş müəllimi, Xarici tələbələr üçün rus dili kafedrasının müdiri işləyib.

2004-2019-cu illərdə BDU-nun Humanitar fakültələr üzrə rus dili kafedrasının müdiri olub. Linqvodidaktika, rus ədəbiyyatı tarixini tədqiq edən Ədibə Paşayeva bir çox kitab və dərsliklərin müəllifidir. Görkəmli alim 2019-cu ildən BDU-nun Rus ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifəsində çalışır.

Ədibə xanım Azərbaycan elmi və təhsilindəki yüksək xidmətlərinə görə "Tərəqqi" medalına, "Qabaqcıl təhsil işçisi", "Əməkdar müəllim" fəxri adlarına layiq görülüb.

Görkəmli alim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2019-cu ildə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilib. Həyatını Bakı Dövlət Universiteti ilə bağlayan Ədibə xanım daim elmi axtarışlarda olub. Onun "Rus dili" (Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin xarici tələbələri üçün dərs vəsaiti), "Rus dili dialoqlarda" (dərs vəsaiti), "Rus dili monoloqlarda" (dərs vəsaiti), "Rus dili" (humanitar fakültələrdə oxuyan tələbələr üçün dərs vəsaiti) və digər əsərləri Azərbaycanda rus dili tədrisinin müasir səviyyədə təşkili sahəsində müstəsna rol oynayıb.

Həyatını elmə və təhsilə bağlamış Ədibə xanımı elmi ictimaiyyət gözəl alim, novator pedaqoq, qayğıkeş və nəcib insan kimi tanıyır. Onun yaradıcılığı, fəaliyyəti Azərbaycan gəncliyi üçün örnəkdir. Görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq, BDU-nun sevimli və unudulmaz müəllimi, nüfuzlu professoru Mir Cəlal Paşayevin dillər əzbəri olan məşhur kəlamlarından biri də budur: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir". Ədibə Paşayeva bu dəyərli ailənin yadigarı, xalqımızın və BDU-nun sevimli alimi, müəllimidir.

Görkəmli alimimizi 80 illik yubileyi münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni elmi nailiyyətlər arzulayırıq!

# BDU-nun ictimai həyatında fəal iştirak edən gənclər təltif olunublar





***İyulun 5-də BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Universitetin ictimai həyatında fəal iştirak edən gənclər təşkilatlarının üzvləri ilə görüşüb.***

Əliş Ağamirzəyev əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. O qeyd edib ki, ali məktəbin vəzifəsi əmək bazarı üçün ixtisaslı kadrlar və cəmiyyətə layiqli vətəndaşlar hazırlamaqdan ibarətdir. BDU-da fəaliyyət göstərən gənclər təşkilatlarının üzvlərinin ictimai fəaliyyəti onların ölkəmizə yararlı vətəndaş kimi yetişmələrində böyük rol oynayır: “Gənclər təşkilatları Ümummilli Lider Heydər Əliyevin “Azərbaycan xalqının milli sərvəti, milli iftixarı” adlandırdığı BDU-nun ictimai həyatının aparıcı qüvvəsidir. “BDU könüllüləri”, BDU Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsinin üzvləri yüksək təşkilatçılıq qabiliyyətinə malikdirlər”.

Daha sonra Əliş Ağamirzəyev BDU gənclər təşkilatlarının üzvlərinin suallarını cavablandırıb.

Görüşün sonunda BDU-nun Məzun Günü, 2022/2023-cü tədris ilinin yaz imtahan sessiyasının və Universitetin müxtəlif strukturlarında təcrübə işinin təşkilində fərqlənən fəal gənclər, həmçinin “Yeni başlayan proqramçılar – 2” müsabiqəsinin qalibləri təltif ediliblər.

# BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Məzun Günü

***İyulun 7-də BDU-nun nəzdində İqtisadiyyat və Humanitar Kollecdə Məzun Günü keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev məzunları təbrik edib, onlara gələcək həyatlarında uğurlar arzulayıb. Elçin Babayev Ümummilli Lider Heydər Əliyevin BDU-nun dünya şöhrətli məzunu olduğunu xatırladıb, bütün məzunları Ulu Öndərin miras qoyduğu dəyərləri yaşatmağa çağırıb. Rektor Kollecin gördüyü işləri, Universitet ilə sıx əməkdaşlığı yüksək qiymətləndirib, məzunların gələcəkdə bacarıqlı mütəxəssis kimi ölkəmizin tərəqqisində, cəmiyyətin inkişafında mühüm rol oynayacaqlarına əmin olduğunu bildirib: "Bu il kolleci 3 məzun fərqlənmə diplomu ilə bitirib. Sayı az olmasına baxmayaraq, keyfiyyətə önəm verilməsi təqdirəlayiqdir. Bundan sonra da məzunlarımızın gələcəkdə yüksəkixtisaslı kadrlar kimi yetişməsi və əmək bazarında öz layiqli yerlərini tutmaları üçün lazımi addımları atacağıq".

Kollecin direktoru Səhər Orucova dövlətimizin təhsilə diqqət və qayğısından, bu tədris ilində görülən işlərdən söz açıb. O, BDU rəhbərliyinin hər zaman Kolleci diqqətdə saxladığını və Universitet ilə sıx əlaqədə fəaliyyət göstərdiklərini qeyd edib. Abşeron Rayon İcra Hakimiyyətinin başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gülnar Rəhimova Məzun Gününün "Heydər Əliyev İli"nə təsadüf etməsinin məzunlar üçün böyük şans olduğunu bildirib. Onların əsası Ulu Öndər tərəfindən qoyulan ideologiyanı layiqincə davam etdirəcəklərinə əminliyini ifadə edib.

Kollecin ictimai həyatında xüsusi fəallıq nümayiş etdirən və təhsildə fərqlənən məzunlar diplom və təşəkkürnamələrlə təltif ediliblər.

Tədbir Kollec tələbələrinin və bir sıra incəsənət xadimlərinin çıxışlarından ibarət konsert proqramı ilə davam edib.

# BDU-nun 1004 bakalavr və magistri yay semestri dərslərində iştirak edib

***BDU-da Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na əsasən, yay semestri təşkil olunub.***

Yay semestri 2022/2023-cü tədris ilində bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbə və magistrantların fənlər üzrə akademik borclarının ləğv edilməsi və ya müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsinə dair müraciətləri nəzərə alınaraq təşkil edilib. BDU-da yay semestrinin iyulun 25-dən başlayaraq 6 həftə ərzində keçirilməsi nəzərdə tutulub. Ümumilikdə yay semestri dərslərində 200-dən artıq fənn üzrə 975 bakalavr və 29 magistr iştirak edib.




# İstanbulda BDU-nun da həmtəşkilatçı olduğu ICESCO-nun Peyk Modeli Təlimi və Aerokosmos Simpoziumu başlayıb

***İyulun 31-də Türkiyənin İstanbul şəhərində İslam Dünyası, Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) tərəfindən Peyk Modeli Təlimi və Aerokosmos Simpoziumunun (Model Satellite (CanSat) Training Workshop & Aerospace Symposium) açılış mərasimi keçirilib.***

BDU-nun də həmtəşkilatçı olduğu tədbirin əsas məqsədi İslam dünyasının ali təhsil müəssisələrinin tələbələri və əməkdaşları arasında kosmik tədqiqatlar sahəsinə marağın artırılması, bu sahədə fundamental və təcrübi bilik və bacarıqların formalaşdırılması, yerli kadrların yetişdirilməsini təmin etməkdir.

Simpoziumun açılış tədbirində ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, İstanbul Texniki Universitetinin (İTU) prorektoru Ali Deniz, İTU-nun Aeronavtika və Kosmonavtika fakültəsinin dekanı Zahit Mecitoğlu və digərləri çıxış edərək tədbirin əhəmiyyətindən söz açıblar.

Tədbirdə onlayn şəkildə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, astrofizika və kosmos elmləri üzrə fəaliyyət istiqamətlərinə, beynəlxalq əlaqələrə xüsusi önəm verən Bakı Dövlət Universiteti son illər ərzində bu sahədə bir sıra nailiyyətlər əldə edib. BDU-da tələbə və gənc mütəxəssisləri elmi tədqiqatlara, layihələrə cəlb etmək məqsədilə Tələbə Elmi-texniki yaradıcılıq Mərkəzi yaradılıb, beynəlxalq səviyyəli tədbirlər, məktəblər keçirilib: "BDU ilə İslam ölkələrinin müvafiq ali təhsil müəssisələri və elmi qurumları arasında Günəş fizikası, Günəş sistemi cisimlərinin tədqiqi, kosmik hava sahələrində, Yerin müşahidəsi, monitorinqi və müxtəlif tətbiqlər vasitəsilə kosmik məlumatların emalı istiqamətində əməkdaşlığın möhkəmləndirilməsi zəruridir. Ölkəmizin ICESCO və ona üzv ölkələrlə birgə layihələrin həyata keçirilməsində, əməkdaşlıq təkliflərinin reallaşdırılmasında BDU əhəmiyyətli rol oynamağa başlayıb. Bu istiqamətdə BDU bütün səylərini səfərbər edəcək. BDU-nun da həmtəşkilatçısı olduğu bugünkü simpoziumun beynəlxalq əlaqələrin inkişafında növbəti mərhələ olacağına, kosmik sənaye üzrə tərəfdaşlığın genişləndirilməsi üçün qarşılıqlı səylərin davam etdirilməsinə geniş imkanlar yaradacağına əminəm".

Rektor həmçinin qeyd edib ki, BDU-nun ICESCO və İstanbul Texniki Universiteti ilə də əməkdaşlığı uğurla inkişaf edir. Qurumlar arasında elm və təhsil sahələrində münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə, genişlənəcəyinə əminlik ifadə olunub. BDU-nun müvafiq kadrların hazırlanması sahəsində birgə fəaliyyətə, əməkdaşlığın qurulmasına hazır olduğu bildirilib. BDU-da Biotibbi materiallar İCESCO kafedrası fəaliyyət göstərir və yeni bir kafedranın açılması istiqamətində işlər gedir.

Simpoziumun panel müzakirəsində qarşılıqlı əməkdaşlıq perspektivləri ilə yanaşı, pilotsuz robot kosmik gəmilərin Yer atmosferindən kənarda kosmosun öyrənilməsindəki rolundan, elmi məqsədlər üçün buraxılan missiyaların əhəmiyyətindən danışılıb, insanın uzaq kosmosa müvəffəqiyyətli uçuşuna nail olmaq üçün astrofiziki hadisələri dərindən dərk etməyin zərurəti vurğulanıb və kosmik mühitin resurslarından insanların rifahı üçün istifadə olunması üzrə beynəlxalq layihələrdən əldə edilən faydalara diqqət yönəldilib.

Qeyd edək ki, tədbirdə ölkəmizi təmsil edəcək BDU komandası tərəfindən hazırlanan “CANSAT1919” və “CubeSat” model peykləri də sərgilənir. Havada olan qazların miqdarını, nisbətini, havanın nəmlik dərəcəsini ölçə bilən bu model peyk sistemləri eyni zamanda səmada çəkiliş edərək bütün məlumatları anlıq olaraq Yer idarəetmə stansiyasına (YİS) ötürmək qabiliyyətinə malikdir. Elektrik enerjisi ehtiyacını üzərində olan monokristal günəş panellərindən təmin edən “CANSAT1919” və “CubeSat” avtomatik olaraq yerə eniş edə, üzərində olan məsafə sensorları sayəsində peyk passiv enmə sistemini (paraşütü) və stabilləşdirici ayaqları avtomatik hərəkətə gətirə bilir.

Simpozium və təlimlər avqustun 5-dək davam edib.

# Milli Mətbuat Günü - 148

*Ümummilli Lider Heydər Əliyev bütün sahələrdə olduğu kimi, Azərbaycan milli mətbuatının inkişafında da misilsiz xidmətlər göstərib. Onun 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın tarixində də yeni mərhələ açdı. 1998-ci ildə senzuranın ləğv edilməsi ilə ölkəmizdə söz və mətbuat azadlığının əsası qoyuldu və bu da təbii olaraq, mətbuatın inkişafına ciddi təkan verdi.*

***İyulun 22-də 148 yaşını qeyd edən milli mətbuatımız zəngin və şərəfli inkişaf yolu keçib. "Əkinçi" qəzetinin ilk nömrəsinin işıq üzü gördüyü gün – 22 iyul ölkəmizdə Milli Mətbuat Günü kimi qeyd olunur.***




Azərbaycan milli mətbuatının yaranışı maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas-alim Həsən bəy Zərdabinin adı ilə bağlıdır. 1875-ci ildə bütün Qafqazda böyük əks-səda doğuran "Əkinçi" qəzetini ərsəyə gətirən Həsən bəy onun həm naşiri, həm redaktoru, həm də korrektoru idi. Qəzetin işıq üzü görməsində Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalılarımızın böyük xidmətləri olub.

Zərdabinin yaratdığı "Əkinçi" qəzeti ilə başlanan bu yol sonrakı dövrlərdə vətənsevər ziyalılarımızın ərsəyə gətirdiyi digər mətbu orqanlarımız tərəfindən davam etdiriləərək xalqımızın milli oyanışında, XX əsrin əvvəllərində istiqlal arzularının gerçəkləşməsində misilsiz rol oynayıb.

Milli mətbuatımız bütün tarixi inkişafı boyu "Əkinçi" ənənələrinə sadiq qalıb, "Əkinçi məktəbi"nin davamçıları daim cəmiyyətin güzgüsü rolunu oynayıb.

Azərbaycanda qəzetçilik ənənəsinin əsasını qoyan "Əkinçi"nin cəmi 56 sayı işıq üzü görsə də (1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək), o, milli mətbuatımızın təşəkkül tapmasında və inkişafında əvəzsiz rol oynadı. Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" qısa müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında populyarlıq qazanmışdı. Qəzet insanların maariflənməsinə, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasına vəsilə oldu. Həmçinin o dövrün görkəmli maarifçiləri "Əkinçi" qəzetinin səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ etməklə, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərirdilər. Bu, çar Rusiyasına xoş gəlmədiyi üçün çox keçmədən "Əkinçi"nin nəşri dayandırıldı.

Ümummilli Lider Heydər Əliyev bütün sahələrdə olduğu kimi, Azərbaycan milli mətbuatının inkişafında da misilsiz xidmətlər göstərib. Onun 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın tarixində də yeni mərhələ açdı. 1998-ci ildə senzuranın ləğv edilməsi ilə ölkəmizdə söz və mətbuat azadlığının əsası qoyuldu və bu da təbii olaraq, mətbuatın inkişafına ciddi təkan verdi.

Ulu Öndərin mətbuata və jurnalistlərə göstərdiyi diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığı tam bərqərar olub. Təsadüfi deyil ki, hazırda respublikada çoxsaylı qəzet və jurnallar nəşr olunur, İnformasiya agentliklərinin, televiziya və radioların geniş şəbəkəsi fəaliyyət göstərir, internet qəzetçilik inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı və davamlı islahatlar nəticəsində Azərbaycan mətbuatı qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevrilib.

Cəmiyyətin güzgüsü adlandırılan mətbuat dinamik inkişaf edən sahələrdən biri kimi daim yenilənməyə açıqdır. Sosial şəbəkələrin meydana çıxması, media məkanında sürətli qloballaşma prosesi və milli mətbuatımızın inkişafı mövcud qanunvericilik bazasının təkmilləşdirilməsini zərurətə çevirmişdi. Bu baxımdan media haqqında yeni qanun layihəsinin hazırlanması zamanın tələbi kimi qarşıda dururdu. 2021-ci ildə Azərbaycanda "Media haqqında" Qanun qəbul edildi. 9 fəsil, 78 maddədən ibarət olan sənəd ölkədə media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir.

Milli mətbuatımızın yubileylərinin geniş qeyd olunması, KİV-ə müntəzəm yardımlar göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən tədbirlər bu mühüm sahəyə qayğının tərkib hissəsidir.

Azərbaycan mediası həm Birinci, həm də İkinci Qarabağ müharibələrində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirərək möhtəşəm Zəfərimizin müjdəçisi oldu. 44 günlük Vətən müharibəsində və müharibədən sonrakı dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mətbuatın rolu və jurnalistlərin fəaliyyəti danılmazdır. Onlar cəbhə xəttində həm xəbər istehsalçısı, həm də səfərbərlik proqramı çərçivəsində əməliyyatlarda iştirak ediblər. Məhz mətbuat nümayəndələrinin peşəkarlığı, fədakarlığı sayəsində Azərbaycanın apardığı ədalətli müharibə, eləcə də Ermənistanın hərbi-siyasi rəhbərliyinin xalqımıza qarşı törətdiyi müharibə cinayətləri haqqında dünya ictimaiyyətinə dolğun məlumatlar çatdırıldı. Qarabağ uğrunda döyüşlərdə fərqlənən və müxtəlif medallarla təltif edilənlər arasında torpaqlarımızın azadlığı naminə qələmini silaha dəyişən jurnalistlərimiz də az deyil.

Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında ən böyük missiyanı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özü reallaşdırdı. Dövlətimizin başçısının Vətən müharibəsi dövründə 30-dan çox beynəlxalq media qurumuna dolğun və faktlara əsaslanan müsahibələri informasiya müharibəsində də Qələbə qazanmağımızda müstəsna rol oynadı.

Azərbaycan həqiqətlərinin təbliği missiyasını hər zaman yorulmadan yerinə yetirən mətbuatımız 44 günlük Vətən müharibəsinin gedişində düşmən təbliğatına qarşı informasiya mübarizəsinə töhfə verdiyi kimi, postmüharibə dövründə də bu işi uğurla davam etdirməkdədir. Azərbaycan mediası Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin səsləndirdiyi bəyanatların, işğaldan azad edilmiş ərazilərimizdə aparılan geniş miqyaslı bərpa-quruculuq işləri barədə informasiyaların ölkə və dünya ictimaiyyətinə çatdırılmasında fəal rol oynayır.

Müasir dövrümüzdə fasiləsiz davam edən informasiya müharibəsində də mətbuat işçiləri öz peşəkarlığı və vətənpərvərliyi ilə daim fərqləniblər.

Ölkəmizin ən böyük jurnalist kadrlar hazırlayan ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti bu əlamətdar gün, 22 iyul - Milli Mətbuat günü münasibətilə öz məzunlarını, kütləvi informasiya vasitələri nümayəndələrini təbrik edir. Böyük peşəkarlıq və fədakarlıq tələb edən məsuliyyətli və şərəfli fəaliyyətlərində nailiyyətlər və uğurlar diləyir.

# Tələbə Gənclər Təşkilatının sədri təltif olunub



***BDU Tələbə Gənclər Təşkilatının (TGT) sədri Ələkbər Həsənov Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) "Fəxri məzun" diplomu ilə təltif olunub.***

O, TGT sədri olduğu müddətdə ATGTİ-nin proqram əsaslı fəaliyyətinə verdiyi töhfəyə görə bu mükafata layiq görülüb.

Məzunumuzu təbrik edir, gələcək fəaliyyətində uğurlar arzulayırıq!

# BDU-nun 4 məzunu üçüncü "Yüksəliş" müsabiqəsinin qalibi olub

***İyulun 31-də üçüncü "Yüksəliş" müsabiqəsinin qaliblərinin adları açıqlanıb. Müsabiqədə qalib olan 22 nəfərdən 4-ü Bakı Dövlət Universitetinin məzunudur.***

Onları təqdim edirik:

***Azad Qəribov*** - 1987-ci ildə anadan olub. Bakı Dövlət Universitetində Beynəlxalq münasibətlər üzrə bakalavriat, Qlazqo Universitetində Beynəlxalq siyasət üzrə magistratura, Mərkəzi Avropa Universitetində Siyasi elmlər ixtisası üzrə doktorantura təhsili alıb. Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı ölkə ofisində kommunikasiya eksperti, ADA Universitetində "Qlobal siyasət", "Dövlət və siyasət" fənləri üzrə müəllim vəzifəsində çalışır.

***Bayram Orucov*** - 1993-cü ildə anadan olub. Bakı Dövlət Universitetində Hüquqşünaslıq üzrə bakalavriat, Erasmus adına Rotterdam Universitetində Beynəlxalq kommersiya və şirkət hüququ üzrə magistratura təhsili alıb. Bakı Dövlət Universitetində Konstitusiya hüququ ixtisası üzrə doktorantura təhsili alır. Azərbaycan Respublikası Vəkillər Kollegiyasında Aparat rəhbəri vəzifəsində çalışır

***Mirzə Ələkbər Babayev*** - 1994-cü ildə anadan olub. Bakı Dövlət Universitetində Beynəlxalq münasibətlər üzrə bakalavriat, Bristol Universitetində Strateji idarəetmə ixtisası üzrə magistratura təhsili alıb. İqtisadiyyat Nazirliyi – Azərbaycan Respublikasının Polşa Respublikasındakı Səfirliyində Mərkəzi Avropa ölkələri üzrə Ticarət Nümayəndəsi Aparatında baş məsləhətçi vəzifəsində çalışır.

***Toğrul Ələkbərov*** - 1988-ci ildə anadan olub. Bakı Dövlət Universitetində Beynəlxalq münasibətlər ixtisası üzrə bakalavriat və Bowling Green Universitetində İşçilərin təhsili və inkişafı ixtisası üzrə magistratura təhsili alıb. Dövlət Məşğulluq Agentliyində Mərkəzi Karyera Filialının rəhbəri vəzifəsində çalışır.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən, intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə təsis olunub.

Qaliblərin adları kadr ehtiyatı bankına daxil edilir, onlar idarəçi rəhbərlər tərəfindən 1 illik fərdi inkişaf planı (https://yukselish.az/mentors) və hər biri 20 min AZN məbləğində özünüinkişaf mükafatı əldə edirlər.

# Mexanika-riyaziyyat fakültəsinin 50 il əvvəlki məzunlarının görüşü

***İyulun 10-da BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun təşəbbüsü ilə Mexanika-riyaziyyat fakültəsinin 1973-cü il məzunlarının görüşü keçirilib.*** Görüşün keçirilməsinin əsas məqsədi BDU məzunları ilə əlaqənin daha da genişləndirilməsi olub.



Tədbiri giriş sözü ilə Mexanika-riyaziyyat fakültəsinin dekanı Ziyatxan Əliyev açıb. O, qocaman məzunların uzun fasilədən sonra universitetdə görüşmələrini müsbət ənənə kimi qiymətləndirərək, bunun davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə məzunlara Universitetdəki yeniliklər və qazanılan uğurlar barədə məlumat verilib. Qeyd edilib ki, bu illər ərzində BDU-da baş verən əsaslı dəyişikliklər, nəzərəçarpan inkişaf, digər universitetlərlə müqayisədə üstünlüklər sevindirici hallardır. Görüş zamanı həmçinin məzunların məşğulluq vəziyyəti, onların cəmiyyətdəki mövqeyi, karyeralarında əldə etdiyi uğurlar müzakirə olunub.

Tədbirin sonunda xatirə şəkli çəkilib.

# Biologiya fakültəsində 35 il sonra baş tutan görüş

***İyulun 11-də Biologiya fakültəsinin 1983-1988-ci illərdə təhsil almış məzunları 35 ildən sonra doğma təhsil ocağında olublar. Onlar mühazirə dərslərinin keçirildiyi auditoriyada 35 il sonra yenidən müəllimləri dinləyiblər.***

Görüşdə vaxtilə məzunlara dərs demiş BDU-nun professorları Niftalı Qocayev, İbrahim Zeynalov, Məcnun Babayev, Rövşən Xəlilov və Vilayət Abdıyev iştirak ediblər.

Biologiya fakültəsinin dekanı Afət Məmmədova fakültənin uğurlarından və gələcək planlarından, məzunlarla əlaqələrin genişləndirilməsi zərurətindən danışıb.

Sonra keçmiş məzunlar Universitetin doğma dəhlizlərini gəzərək fakültənin auditoriyalarında və "Təkamül təlimi" muzeyində də olublar.



# Mexanika-riyaziyyat fakültəsinin məzunları ilə görüş

***İyulun 18-də BDU Karyera və məzunlarla əlaqə sektorunun təşəbbüsü ilə Mexanika-riyaziyyat fakültəsinin 2002-ci il məzunlarının görüşü keçirilib.***

Mexanika-riyaziyyat fakültəsinin dekanı Ziyadxan Əliyev məzunları salamlayaraq, onları yenidən Universitetdə görməkdən məmnun olduğunu bildirib. Qeyd edib ki, BDU məzunları ilə əlaqələrin daha da inkişaf etdirilməsi məqsədi ilə mütəmadi olaraq onlarla görüşlər keçirilir. Görüş zamanı məzunlar xatirələrini bölüşərək, Universitetdə bu illər ərzində müsbət dəyişikliklərin baş verdiyini vurğulayıblar. Görüşdə məzunların karyeraları, qazandıqları nailiyyətlər müzakirə olunub, belə görüşlərin keçirilməsinin əhəmiyyəti qeyd edilib. Tədbirin sonunda xatirə şəkli çəkdirilib.



# "Gənc istedadlar" liseyinin 9 şagirdi qızıl və gümüş medala layiq görülüb

***Elm və təhsil naziri Emin Əmrullayev Ümumi təhsil müəssisələrinin 2022-2023-cü tədris ili üzrə məzunlarının qızıl və gümüş nişanla təltif olunması haqqında əmr imzalayıb.***

Əmrə əsasən, 126 şagird qızıl, 95 şagird isə gümüş nişanla təltif olunub.

BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin 9 şagirdi qızıl və gümüş medala layiq görülüb. Liseyin şagirdləri Misir Hüseynli, İlqarə Yusifzadə, Ayşan Hacıyeva, Nəzrin İsmayılova, Fidan Əhmədova, Salman Vahabov, Murad Novruzov qızıl, Raul Mahmudov və Fərhad Kərimbəyli isə gümüş nişanla təltif olunublar.

Qızıl və gümüş nişanla təltif olunan təhsilalanların adları məktəbin "Şərəf kitabı"na yazılacaq.



# BDU-nun İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyevin doğum günüdür



***İyulun 27-si İctimai-siyasi xadim, Bakı Dövlət Universitetinin İctimai Nəzarət Şurasının sədri, millət vəkili Arzu Nağıyevin 60 yaşı tamam olub.***

Arzu Nağıyev 27 iyul 1963-cü ildə Tovuz şəhərində anadan olub. 1980-ci ildə Tovuz rayonu Yusif Sadıxov adına Bozalqanlı kənd orta məktəbini qızıl medalla bitirib. 1985-ci ildə Serqo Ordjonikidze adına Moskva İdarəetmə İnstitutunun Tikinti və şəhər təsərrüfatının idarə edilməsinin təşkili fakültəsində mühəndis iqtisadçı ixtisası üzrə təhsil alıb. 1991-ci ildə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Ali kurslarını qırmızı diplomla tamamlayıb. Təhlükəsizlik orqanlarının ehtiyatda olan zabiti və Qarabağ müharibəsi veteranıdır. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 5 bədii, 2 sənədli kitabın müəllifidir.

Azərbaycan Respublikasının Milli Məclisinə 104 saylı Gədəbəy-Tovuz seçki dairəsindən VI çağırış deputat seçilib.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Əmək və sosial siyasət komitəsinin üzvüdür. Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belarus, İsrail, Slovakiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin, Azərbaycan Respublikası Milli Məclisinin və Rusiya Federasiyası Federal Məclisinin ikitərəfli əməkdaşlığı üzrə parlamentlərarası komissiyasının üzvüdür.

Prezident İlham Əliyevin 26 iyul 2023-cü il tarixli Sərəncamı ilə Arzu Nağıyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilib.

İctimai-siyasi xadim Arzu Nağıyevi 60 illik yubileyi münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni nailiyyətlər arzulayırıq!

# BDU Türkiyənin Karabük Universiteti ilə anlaşma memorandumu imzalayıb

***İyulun 10-da BDU ilə Türkiyə Respublikasının Karabük Universiteti arasında anlaşma memorandumu imzalanıb.***



Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Karabük Universitetinin rektoru Refik Polat imzalayıb. Müqavilə çərçivəsində akademik heyətin, bakalavr, magistr və tədqiqatçıların mübadiləsi nəzərdə tutulur. Bu isə gələcəkdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsini təmin edəcək.

Əsası 2007-ci ildə qoyulmuş Türkiyənin Karabük Universitetində 52000 tələbə təhsil alır. Universitetdə müxtəlif ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir.

# Polşanın Gdansk Texnologiya Universitetinin professoru BDU-da elmi seminar keçirib



İyulun 6-da Biologiya fakültəsində Polşa Respublikasının Gdansk Texnologiya Universitetinin Biologiya fakültəsinin Genetika və biosistematika kafedrasının professoru Barbara Vojtasik tərəfindən "Zooekoloji tədqiqatlarda yeni metodun tətbiqi" mövzusunda elmi seminar keçirilib.

BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov, beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Biologiya fakültəsinin dekanı Afət Məmmədova, Bioekologiya kafedrasının müdiri Nərminə Sadıqova, Coğrafi ekologiya kafedrasının müdiri Məhluqə Yusifova, Bofizika və biokimya kafedrasının müdiri Rövşən Xəlilov, Zoologiya və fiziologiya kafedrasının müdiri Əbülfəz Tağıyev, fakültənin professor-müəllim heyəti, gənc tədqiqatçı və ekoloqların qatıldığı elmi seminarda məruzəçi tədqiq etdiyi su mühitinin xarakteristikası və bentos orqanizmlərin sistematik qrupları haqqında ətraflı məlumat verib. Polşalı alim çirklənmiş su mühitinin ekoloji qiymətləndirilməsi üçün yeni metodun məzmununu təqdim edib.

Barbara Vojtasik həmçinin su hövzələrində bentoc növlərin indikator xüsusiyyətini, hidromorfoloji, hidrofiziki, hidrokimyəvi rejimləri haqqında tədqiqatlardan əldə edilən nəticələri diqqətə çatdırıb.

# BDU Həmkarlar İttifaqı Komitəsinin sədri Qazaxıstanda keçirilən beynəlxalq forumda iştirak edib

***İyulun 13-də BDU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri Rəşad Cabarov Qazaxıstan Respublikasının Türküstan şəhərində Avrasiya Təhsil İşçiləri Beynəlxalq Həmkarlar İttifaqı Birliyinin XV Forumunda iştirak edib.***




Forumda təhsil sahəsində müasir problemlər, xüsusilə həmkarlar ittifaqlarının fəaliyyəti müzakirə olunub. Məruzəçilər təmsil etdikləri ölkələrdə həmin sahələrdəki vəziyyət haqqında məlumat veriblər. Türk dövlətləri arasındakı əlaqələrin genişləndirilməsi məqsədilə keçirilən konfransda dəvət olunan digər alimlərin elmi məqalələri də dinlənilib. Geniş marağa səbəb olan konfransda qarşılıqlı əməkdaşlıq məsələləri də müzakirə olunub.

# BDU-nun müəlliminin 2 monoqrafiyası işıq üzü görüb

***Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının müəllimi Vasif Hüseynlinin "Əmək hüququnun əsas subyektləri" və "Əmək hüququnun subyektləri: anlayışı və hüquqi statusu" adlı monoqrafiyaları nəşr olunub.***

"Əmək hüququnun əsas subyektləri" adlanan monoqrafiyada əmək hüququ nəzəriyyəsinin müddəaları əsasında əmək hüququnun əsas subyektləri kimi işçi və işəgötürənin anlayışı və hüquqi statusunun məzmunu ilə bağlı problemlər tədqiq olunub.

"Əmək hüququnun subyektləri: anlayışı və hüquqi statusu" adlı monoqrafiyada isə əmək hüququ subyektlərinin anlayışı, təsnifatı və hüquqi statusu ilə bağlı problemlər tədqiq olunub.

Monoqrafiyalar hüquqşünaslıq ixtisası üzrə təhsil alan bakalavrlar, magistrantlar, doktorantlar, dissertantlar və elmi işçilər, habelə əmək hüququ ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Monoqrafiyaların elmi redaktoru professor Alış Qasımovdur.

# BDU-nun magistraturası üzrə plan yeri artıb

***Bakı Dövlət Universitetində 2023/2024-cü tədris ilində magistraturaya 1072 plan yeri ayrılıb.*** Onlardan 774 yer Azərbaycan, 181 yer rus, 117 yer isə ingilis bölməsi üzrədir. Ötən il bu rəqəm 1024 yer olub. Qeyd edək ki, BDU-nun magistraturasında 49 ixtisas, 246 ixtisaslaşma üzrə tədris aparılır.

# Qızıl nanohissəciklərinin bioloji üsulla sintezi və tibbdə tətbiqi üzrə araşdırmalar davam edir

***Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilovun həmmüəllifi olduğu "Allium cepa L. qabığının sulu ekstraktından alınmış qızıl nanohissəciklərin (Au NPs) antipatogen, antioksidant, antikolinesteraz fəaliyyəti" ("Green synthesis and evaluation of antipathogenic, antioxidant, and anticholinesterase activities of gold nanoparticles (Au NPs) from Allium cepa L. peel aqueous extract") adlı məqalə "Web of Science" elmmetrik bazasına daxil olan (IF: 4.05) "Biomass Conversion and Biorefinery" jurnalında dərc olunub.***

Məlumdur ki, bioloji üsulla alınmış qızıl nanohissəciklər terapevtik xüsusiyyətə malikdir və müasir tibbdə geniş tətbiq edilir. Ona görə də işdə qızıl nanohissəcikləri ekoloji cəhətdən təmiz və səmərəli üsulla - allium cepa (AC) qırmızı qabıq (dəri) ekstraktından istifadə edilməklə sintez olunub. Qızıl nanohissəciklərin antibakterial və antioksidant fəaliyyəti, həmçinin asetilkolinesteraza (AChE) və butirilxolinesteraza (BChE) fermentlərinə inhibitor təsiri araşdırılıb, optik xassələri tədqiq edilib. TEM tədqiqatları əsasında nanohissəciklərin əsasən sferik formada olması və ölçülərinin 6.08-54.20 nm intervalında dəyişdiyi müəyyənləşdirilib.

# BDU-nun elmi işçisi Portuqaliyanın NOVA Universitetində araşdırmalar aparıb

***Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının böyük elmi işçisi Sevinc Nuriyeva Avropa Birliyi tərəfindən maliyyələşdirilən Elm və Texnologiyada Avropa Əməkdaşlığı (European Cooperation in Science and Technology (COST)) proqramının "Fotovoltaika üçün yeni qeyri-üzvi halkogenidlərin tədqiqi və beynəlxalq əməkdaşlıq" (CA21148) adlı layihəsi üzrə Qısamüddətli Elmi Missiya (Short-term Scientific Mission (STSM)) qrant müsabiqəsinin qalibi kimi 19-30 iyun tarixlərində Portuqaliyanın NOVA Universitetində elmi ezamiyyətdə olub.***



Layihə əsasında Sevinc Nuriyeva tərəfindən Nanoaraşdırmalar ETL-də sintez olunan nanonaqillər və nanokompozitlər (tədqiqat mövzusu: Fotovoltaiklər üçün çoxlaylı karbon nanoborulan və mis sulfid nanonaqilləri (CN/CuS) əsasında materiallar) NOVA Universitetinin Nanostrukturlar, Nanomodelləşdirmə və Nanofabrikasiya İnstitutunun müxtəlif laboratoriyalarında tədqiq olunub, mikroskopik və spektroskopik analizlər aparılıb. Sintez edilmiş birölçülü quruluşların və nanokompozitlərin morfologiyası, strukturu və optik xassələri müxtəlif analiz üsulları ilə tədqiq edilib. Alınmış nəticələr həmin Mərkəzin elmi işçiləri ilə müzakirə olunub və gələcəkdə birgə elmi məqalələrin hazırlanaraq çap edilməsi nəzərdə tutulub.

Sevinc Nuriyeva ezamiyyət müddətində müxtəlif tədqiqat laboratoriyaları ilə tanış olub, əməkdaşlarla maraqlı diskussiyalarda iştirak edib, həmçinin, Nanoaraşdırmalar ETL-nin elmi istiqamətləri və BDU haqqında iştirakçılara məlumat verib.

# ABŞ-dan olan ekspertlər BDU-da hidroponika və akvaponika sistemləri haqqında təlimlər keçirir

***ABŞ-ın "Danbury Hydroponics" şirkətinin qurucusu Dylan Mehri, "Aquaponics Associate" şirkətinin icraçı direktoru Joshua Dushchi, "Transparent Path" şirkətinin baş direktoru Erik Uiver, "Rooted Leaf Agritech" şirkətinin baş direktoru Nick Nikolaev, "GlobalGAP" şirkətinin beynəlxalq standartlar üzrə mütəxəssisi Fuad Ağayev tərəfindən Biologiya fakültəsinin müəllim-tələbələri, həmçinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin əməkdaşları üçün hidroponika və akvaponika sistemləri haqqında onlayn silsilə təlimlər keçirilir.***

Təlimlər "Hidroponika və akvaponika", "Qida istehsalı", "Məhsuldarlıq və qida təhlükəsizliyi" mövzularını əhatə edir. Beynəlxalq mütəxəssislər tərəfindən akvaponika və hidroponika sistemlərinin strukturu, işləmə mexanizmləri haqqında geniş məlumat verilir.

# "Gənc istedadlar" liseyinin şagirdi ABŞ-da olimpiadada qızıl medal qazanıb



***İyulun 13-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin VI sinif şagirdi Sulduz Hacıyev ABŞ-ın Kolumbiya Universitetində keçirilən Beynəlxalq Kopernikus Olimpiadasında riyaziyyat üzrə qızıl medala layiq görülüb.***

"Global Olympic Center"in təşkilatçılığı ilə keçirilən Beynəlxalq Kopernikus Olimpiadasının qlobal mərhələsində ölkəmizi müxtəlif məktəblərdən seçilmiş 60 istedadlı şagirddən ibarət komanda təmsil edib.

Olimpiadanın açılış mərasimində komandamızın üzvləri Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında səhnəyə çıxıblar. Azərbaycanlı riyaziyyatçılar beynəlxalq turnirdə 22 ölkə ilə yarışıb və ölkəmizin komandası 5 kateqoriya üzrə təmsil olunub.

"Gənc istedadlar" liseyinin VI sinif şagirdi Sulduz Hacıyev 12 yaş qrupunda olimpiadının qalibi olub, qızıl medala layiq görülüb.

Sonda olimpiada qalibləri mükafatlandırılıb. Mükafatlandırma mərasimində Azərbaycanın ABŞ-dakı fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim çıxış edərək bütün iştirakçıları və Azərbaycan komandasını təbrik edib.

Şagirdimizi təbrik edir və uğurlar arzulayırıq!

# BDU-nun dörd tələbəsi ərəb dili üzrə natiqlik müsabiqəsinin qalibi olub



***İyulun 17-də Bakı Avrasiya Universiteti (BAAU) ilə Səudiyyə Ərəbistanının Kral Abdulla bin Əbdüləziz adına Ərəb dilinə Xidmət üzrə Beynəlxalq Mərkəzin birgə yaratdığı "Ərəbşünaslıq Mərkəzi"nin təşkilatçılığı ilə respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələrinin tələbələri arasında natiqlik yarışı keçirilib.***

Müsabiqədə BDU, BAAU, Azərbaycan Dillər Universitetində ərəb dili üzrə ixtisaslaşan tələbələr iştirak edib.

Müsabiqənin yekun mərhələsində 25 tələbə iştirak edib. Onlar ərəb dilində mətnlər səsləndiriblər. Münsiflər heyəti müsabiqə iştirakçılarının aydın nitq bacarıqlarını və ərəb dilində onu səlis ifadə etmə qabiliyyətlərini qiymətləndirib.

BDU-nun tələbəsi Mohammedali Axundov müsabiqədə I yerə layiq görülüb. BDU-nun tələbəsi Simuzər Məmmədzadə və BAAU-nun tələbəsi Aişə Nəbiyeva II yeri tutublar. III yerə isə BDU-nun tələbələri Yaşar Hüseynzadə, Səbinə Cəbrayılova və BAAU-nun tələbəsi Elmira Əhmədova layiq görülüblər.

# Şərqşünaslıq fakültəsinin tələbəsinin böyük uğuru

***Şərqşünaslıq fakültəsinin Regionşünaslıq ixtisasının II kurs tələbəsi, tennis üzrə dəfələrlə Azərbaycan çempionu və xarici turnirlərin qalibi, idman ustası Kənan Qasımov Gürcüstanın paytaxtı Tbilisidə keçirilən "İTF Word Tennis Tour (Juniors)" adlı mötəbər idman yarışında I yerə layiq görülüb.***

Tələbəmizi təbrik edir, uğurlarının davamını diləyirik!




# SABAH qruplarının məzunu MİQ müsabiqəsində Riyaziyyat fənni üzrə ölkə birincisi olub

***BDU-nun SABAH qruplarının Riyaziyyat müəllimliyi ixtisasını fərqlənmə diplomu ilə bitirən Süleyman Bağırov müəllimlərin işə qəbulu (MİQ) müsabiqəsində Riyaziyyat fənni üzrə ölkə birincisi olub.***

Süleyman Bağırov tələbəlik illərində də bir çox nailiyyətlər qazanıb. O, 2018-2019-cu illərdə SABAH qrupları layihəsi çərçivəsində Azərbaycan Xalq Cümhuriyyətinin və Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunmuş bilik yarışlarında riyaziyyat və informasiya texnologiyaları üzrə I yerlərə layiq görülüb.

2020-ci ildə Təhsildə Araşdırma və İnkişaf Mərkəzi tərəfindən 30 yaşa qədər Riyaziyyat müəllimləri arasında keçirilən Respublika olimpiadasında II yeri tutub.

Süleyman Bağırov iki il ardıcıl olaraq MİQ imtahanlarında uğur qazanıb. O, 2022-ci ildə MİQ imtahanında Riyaziyyat fənni üzrə 87.5 bal toplayıb. 2023-cü il MİQ imtahanında isə Riyaziyyat fənni üzrə 88.75 bal toplayaraq ölkə birincisi olub.



Süleyman Bağırov hazırda BDU-nun Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının doktorantıdır.

Məzunumuza gələcək təhsilində və karyerasında uğurlar arzulayırıq!

# BDU-nun SABAH qruplarının tələbəsi dünyanın 15 qabaqcıl universitetinə təqaüdlə qəbul olub



***BDU-nun SABAH qruplarının Hüquqşünaslıq ixtisasının IV kurs tələbəsi Cavid Rəhimli dünyanın 15 qabaqcıl universitetinə təqaüdlə qəbul olub.*** Tələbəmiz onların arasında Amerika Birləşmiş Ştatlarının (ABŞ) Corc Vaşinqton Universitetinin Xarici əlaqələr hüququ üzrə LL.M proqramını seçib. O, akademik və sosial göstəricilərinə görə azsaylı tələbəyə verilən 35000 dollar miqdarında "GW Law Merit Scholarship"ə layiq görülüb.

# Bu il SABAH qruplarını 268 məzun bitirir

***BDU-nun SABAH qruplarında 2022-2023-cü dərs ilində 9 ixtisas (Psixologiya, Hüquqşünaslıq, Kompüter elmləri, Coğrafiya müəllimliyi, Fizika müəllimliyi, Biologiya müəllimliyi, Tarix müəllimliyi, Riyaziyyat müəllimliyi, Kimya müəllimliyi), 32 qrup üzrə 822 tələbə təhsil alıb.***

Azərbaycanın 10 ali təhsil müəssisəsindəki SABAH qrupları arasında ən çox ixtisas və tələbə sayı məhz BDU-dadır. Bu tədris ilində BDU-nun SABAH qruplarını 268 məzun bitirir.

Ümumilikdə son 7 ildə BDU-nun SABAH qruplarından 1643 tələbə məzun olub.

Ötən il BDU-nun SABAH məzunlarından 117 nəfəri Azərbaycanda, 17 nəfəri isə xaricdə magistraturaya daxil olub. BDU-nun SABAH qrupunun ötənilki məzunlarından 46 nəfəri yerli və xarici doktoranturalarda təhsil alır. Qeyd edək ki, SABAH ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsi, ali təhsil sistemində yeni və fərqli bir mühitin yaradılması, savadlı, bacarıqlı və hazırlıqlı tələbə yetişdirilməsi, əmək bazarının artan tələblərinə müvafiq olaraq kadr hazırlığının təmin edilməsi məqsədilə 2013/2014-cü tədris ilində yaradılıb.

# SABAH qruplarının tələbələri İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nüvə tədqiqatları departamentində



***İyulun 4-də BDU-nun SABAH qruplarının Fizika müəllimliyi ixtisasının III kurs tələbələrinə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nüvə tədqiqatları departamentində infosessiya təşkil olunub.***

BDU-nun SABAH qruplarının müəllimi Şirxan Hümbətovun rəhbərliyi ilə keçirilən infosessiyada Nüvə tədqiqatları departamentinin müdiri Cəlal Nağıyev, əməkdaşları Azər Sadıqov, Zaur Xəlilov və Elvin Muradov tələbələri SƏTƏM təhlükəsizlik qaydaları, Qamma sterilizasiya qurğusu və onun işləmə prinsipi ilə tanış ediblər.

İnfosessiyanın məqsədi tələbələrin nəzəri biliklərinin praktikada tətbiqini genişləndirmək və onları müasir metodlarla tanış etmək olub.

# Dövlət Proqramı ilə Birləşmiş Krallığın Warwick Universitetinə qəbul olan BDU məzunu: “Ölkəmizə faydalı kadr kimi yetişmək istəyirəm”

*O, Kimya fakültəsinin məzunu, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Warwick Universitetinə Polimerlər kimyası ixtisası üzrə qəbul olan Rəhimə Bağırovadır.*





***Gözlərində əldə etdiyi nailiyyətin sevinci var. Seçdiyi sahəni çox sevir və ölkəsinə daha çox fayda vermək istəyir.*** O, Kimya fakültəsinin məzunu, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Warwick Universitetinə Polimerlər kimyası ixtisası üzrə qəbul olan Rəhimə Bağırovadır.

Məzunumuz qəbul ilə bağlı təəssürat və tövsiyələrini bizimlə bölüşüb:

***- Rəhimə, bizə özün barədə ətraflı məlumat verə bilərsənmi?***

- Bakının Nərimanov rayonunda yerləşən 82 №-li tam orta məktəbi bitirmişəm. 2019-cu ildə BDU-nun Kimya fakültəsinə ingilis bölməsi üzrə qəbul olmuşam. O zamanlar da düşünürdüm ki, Kimya ixtisası üçün Azərbaycanda təhsilimi davam etdirə biləcəyim ən yaxşı universitet BDU ola bilər. 2023-cü ildə 98,54 ortalama və fərqlənmə diplomu ilə bakalavriat təhsilimi başa vurmuşam.

***-Xaricdə təhsil almağa necə qərar verdin? Dövlət Proqramına müraciət etmək ideyası hardan yarandı?***

- Əslində proqrama müraciət etməkdə məqsədim kimya sahəsini dərindən öyrənmək və onu araşdırmaqdır. Bu məqsədlə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının nüfuzlu Warwick Universitetinə Polimerlər kimyası ixtisası üzrə müraciət etdim. Bu ixtisas üzrə magistr pilləsini bitirdikdən sonra Azərbaycanda polimerlər kimyası istiqamətində tədqiqatlarımı davam etdirmək və təkmilləşdirmək istəyirəm.

***- BDU-da bakalavr pilləsində əldə etdiyin bilik və bacarıqlar sənə nələr qazandırdı?***

- Qeyd etdiyim kimi, tələbə olmağa hazırlaşanda seçdiyim ixtisası mənə ən yaxşı tədris edəcək universitetin məhz BDU olduğunu düşünürdüm. Elə də oldu. Dörd illik təhsil həyatımda səmimi professor-müəllim heyətimiz və auditoriyada keçirdiyim vaxtlar gözəl xatirə kimi qalacaq. Bütün bunların içərisində isə ən müsbət tərəf təhsil aldığım universitetin mənə öyrətdiyi, qazandırdığı biliklərdir. Bugünkü uğurum o illərin mənə qazandırdıqlarının nəticəsidir. Mən BDU-nu seçməklə arzularımı reallaşdıracağım yolda böyük bir məsafəni qət etdim. Sözsüz ki, burada savadlı və qayğıkeş universitet kollektivi hədəflərimə çatmaqda əvəzsiz rol oynadı. Bu proqrama qəbul ərəfəsində də, müsahibə mərhələsində də daim onların hərtərəfli dəstəyini hiss etdim. Digər tərəfdən, polimerlər kimyası mənim diplom işimin tədqiq mövzusu idi. Dövlət Proqramına hazırlıq mərhələsində də bir daha bu sahənin mənə nə qədər yaxın olduğunu gördüm.

***- Xaricdə təhsil üçün Böyük Britaniyanı seçməyinin səbəbi nədir?***

- Azərbaycanda inkişafda olan kimya sənayesində polimerlər kimyasının xüsusi önəmi var. Tədqiq etməyi düşündüyüm digər sahə isə yüksək həssaslığa malik nanohissəciklərdir ki, bu da neft-qaz sənayesi üzrə tətbiq oluna bilər. Bunun üçün də Birləşmiş Krallığın Warwick Universitetini seçdim.

***- Qəbul xəbərini necə qarşıladın?***

- Bu universitet və ixtisas uzun müddətdir düşündüyüm universitet və ixtisas idi. Təbii ki, qəbul xəbərini alanda çox sevinmişdim, indi də sevincliyəm. Əsas da onun üçün sevinirdim ki, bu qəbulu mən Dövlət Proqramı ilə əldə etmişəm. Bu xəbər valideynlərimin də mənimlə qürur duymasına səbəb oldu. Axı mən ölkəmizi təmsil edəcəyəm.

***- Hazırda bir çox gənc sizin kimi xaricdə təhsil almaq istəyir. Onlara tövsiyələrin nələrdir?***

- Xaricdə təhsil almaq üçün dil və ixtisas bilikləri ilə yanaşı, sosial ünsiyyət və kommunikasiya bacarıqları da çox əhəmiyyətlidir. Bakalavriat səviyyəsində ingilis bölməsində təhsil almağım bu baxımdan mənə xeyli üstünlüklər qazandırdı. Məzun olanda Dövlət Proqramı üçün tələb olunan şərtləri artıq tamamlamışdım. Universitetimiz tələbələrin sosial və ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi üçün davamlı layihələr həyata keçirir. Tələbələrə tövsiyəm odur ki, akademik təhsillə yanaşı, sosialyönümlü layihələrdə də iştirak etsinlər.

***-Rəhimə, ən böyük hədəfin nədir?***

-Gələcəkdə ölkəmizə faydalı kadr kimi yetişmək istəyirəm. Hədəfim Azərbaycanda polimerlər kimyası istiqamətində tədqiqatlar aparmaq və elmi nəticələri dünya ictimaiyyətinə təqdim etməkdir.

***Nurlan Cəbrayılzadə***
*Jurnalistika fakültəsinin*
*II kurs tələbəsi*

# BDU tələbələri Azərbaycanın Milli qəhrəmanları Polad Həşimov və İlqar Mirzəyevin məzarlarını ziyarət ediblər

***İyulun 14-də BDU-nun Tələbə Gənclər Təşkilatının üzvləri 2020-ci ilin iyul ayında baş vermiş Tovuz döyüşlərinin üçüncü ildönümü ilə əlaqədar II Fəxri Xiyabanda Azərbaycanın Milli qəhrəmanları Polad Həşimov və İlqar Mirzəyevin məzarlarını ziyarət ediblər.***

Ziyarət zamanı 44 günlük Vətən müharibəsində xüsusi şücaət göstərərək şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımızın da xatirəsi ehtiramla yad edilib, məzarları önünə gül dəstələri düzüb. Qeyd edilib ki, qəhrəman şəhidlərimizin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq, gələcək nəsillər üçün örnək olacaq.

# “Gənc istedadlar” liseyinin şagirdləri Sinqapurda SIMOC müsabiqəsinin qalibi olublar



***İyulun 28-də Asiyanın ən böyük riyaziyyat müsabiqələrindən olan AMO və SASMO olimpiadalarının qalibləri bu il Sinqapurda keçirilən "Singapore international math olympiad challenge" (SIMOC) olimpiadasında iştirak ediblər.***

ABŞ, Kanada, Sinqapur, Çin, Yaponiya, Birləşmiş Krallıq, Türkiyə, Hindistan və s. kimi 30-dan çox ölkədən ümumilikdə 1633 məktəblinin iştirak etdiyi SIMOC olimpiadasında Azərbaycandan 129 şagird təmsil olunub.

SIMOC olimpiadasında BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin V sinif şagirdi Fateh Kərimli məntiq üzrə qızıl, VIII sinif şagirdi Cabir Abbasov gümüş medala layiq görülüb.

Şagirdlərimizi təbrik edir və uğurlar arzulayırıq!

# Keyfiyyət Təminatı Mərkəzi yaradılıb

***Bakı Dövlət Universitetində Keyfiyyətin təminatı, monitorinq şöbəsinin bazasında Keyfiyyət Təminatı Mərkəzi yaradılıb.***

Bununla əlaqədar BDU Elmi Şurası qərar qəbul edib.

Keyfiyyət Təminatı Mərkəzinin yaradılması üçün Almaniya və Türkiyə universitetlərinin təcrübəsi öyrənilib, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) tövsiyələri nəzərə alınıb.

Keyfiyyət Təminatı Mərkəzində Monitorinq, təhlil və akkreditasiya, Təlim, metodik dəstək və inkişaf şöbələri fəaliyyət göstərəcək.

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.
**Çapa imzalanıb:** 31.07 .2023
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08